# "Bu məktəbə bir gələn, bir daha ayrılmaq istəmir"

## İstedadlar yetişdirən Bülbül adına orta ixtisas musiqi məktəbindən reportaj

**Bu həftə təməli Üzeyir Hacıbəyli tərəfindən qoyulan Bülbül adına orta ixtisas musiqi məktəbində qonaq olduq. Azərbaycan mədəniyyətində özünəməxsus yeri olan bu tədris ocağında bizi məktəbin musiqi bölməsi üzrə direktor müavini Aytən Əhmədova qarşıladı. Məktəbin əsaslı təmirə ehtiyacı olduğunu qeyd edən direktor müavini bildirdi ki, bu yaxınlarda Təhsil Nazirliyi tərəfindən məktəbin təmir edilməsi nəzərdə tutulub.**

### DÜNYADA TANINMIŞ MUSİQİ MƏKTƏBİ

Aytən xanım məktəbin şagirdlərinin uğurlarından ağızdolusu danışdı. Bildirdi ki, məktəbin şagirdləri fortepiano, violin, violonçel, viola, arfa, klarnet, qaboy, fleyta, valtorna, tuba, trombon, faqot, saksofon, tar, kamança, qanun, balaban, xanəndəlik, vokal, nəzəriyyə, bəstəkarlıq və xor dirijorluğu ixtisasları üzrə təhsil alırlar. Öz ixtisaslarından əlavə, tədris planına əsasən şagirdlər ümumi fortepiano dərslərini də keçirlər. Şagirdlərin fortepianoda ifanı mənimsəmələri çox vacibdir. Fortepiano əsas istiqamətverici alətdir. Şagirdlərin fortepiano alətində bacarıqla ifa etmələri onların qarşısında geniş imkanlar açır. Məktəbdə tez-tez bu şöbənin şagirdlərinin konsertləri keçirilir və şagirdlər tərəfindən Qərbi Avropa, rus, Azərbaycan bəstəkarlarının əsərləri böyük bacarıqla ifa olunur.

Hər il Yeni il ərəfəsində bütün şöbələrdə təhsil alan şagirdlər hesabat xarakterli konsert proqramı ilə çıxış edirlər. M.Maqomayev adına Dövlət Filarmoniyasında, Beynəlxalq Muğam Mərkəzində, müxtəlif muzeylərdə keçirilən konsertlər rəngarəng proqramları ilə seçilir.

Məktəbdə təhsil alan şagirdlər ildə iki dəfə ixtisas və musiqi fənlərindən imtahan verirlər, dinləyişlərdə, akademik konsertlərdə ifa edirlər. Qeyd edək ki, ixtisas imtahanlarının hamısı məktəbin Böyük zalında keçirilir. I sinifdən başlayaraq məktəbin şagirdləri səhnəyə alışdırılır. Səhnənin özünün məsuliyyəti var və kiçik yaşlarından bu məsulliyyəti hiss etmək çox vacibdir. Bundan başqa, I sinfə daxil olan şagirdlərlə ilk günlərdən başlayaraq səhnə mədəniyyəti istiqamətində iş aparılır. Buraya səhnəyə çıxış, səhnədə özünü aparma, ifa mədəniyyəti, səhnə geyim mədəniyyəti və s. aiddir.

Bülbül adına orta ixtisas məktəbini istedadlar yetişdirən məktəb adlandırmaq olar. Bu təhsil ocağı savadlı, peşəkar musiqiçi hazırlamaqla bərabər, konsert artistləri yetişdirən bir məkandır.

### BİZ ŞAGİRDLƏRİMİZƏ ARXAYINIQ

Aytən xanım deyir ki, bu məktəbi qurtaran məzunların hamısı Azərbaycan mədəniyyətinin fəxrləridir. Məktəb də öz

**Xəyalə Rəis**

məzunları ilə fəxr edir. Dövlətin istedadlı gənclərə qayğısı həmişə olub və bu qayğı bu gün də davam edir. 1996-cı ildə ümummilli lider Heydər Əliyev "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Fərman imzalayıb. Bu fərmana əsasən, Azərbaycanın gənc istedadlarının "Qızıl Kitab"ı təsis edilib, gənc istedadların adları "Qızıl Kitab"a yazılaraq, onlar xüsusi təqaüdə layiq görülürlər. 1996-cı ildən başlayaraq bu günə qədər məktəbin 27 şagirdinin adı "Qızıl Kitab"a yazılıb. Hal-hazırda məktəbdə 4 Prezident təqaüdçüsü təhsil alır: Atabəy İsmayılov (tar), Leyla Zeynalova (fotepiano), Cəmilə Əsgərzadə (violin) və Çinarə Əzimova (vokal).

Təhsil Nazirliyi tərəfindən də Bülbül adına orta ixtisas musiqi məktəbi böyük dəstək görür. Məktəbin şagirdləri dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq müsabiqə və festivallarda yüksək səviyyədə iştirak edir və Vətənə mükafatsız geri dönmürlər. Bu barədə danışan Aytən xanım qeyd etdi ki, məktəbin e-mail ünvanına dünyanın müxtəlif ölkələrindən müsabiqədə iştirak üçün dəvətlər daxil olur. "Onlar bizim uşaqların istedadına, yüksək peşəkarlığına bələddir. Çünki şagirdlərimiz iştirak etdikləri müsabiqə və festivallarda Qran Pri mükafatı və birinci yerlərə layiq görülürlər. 2012-ci ildə "Global Trade Leaders Club"un Təşkilat Komitəsi tərəfindən məktəbə göndərilən məktubda Bülbül adına orta ixtisas musiqi məktəbinin adının 2012-ci il "Za kaçestvo" Beynəlxalq Avropa Prizinin nominasıyasına salındığı bildirilmişdi. Bu, məktəbin 2012-ci ildə Avropada keçirilən beynəlxalq müsabiqələrdə əldə etdiyi nailiyyətlərin nəticəsidir. Qeyd edək ki, 2014-cü ildə musiqi məktəbi "Azərbaycanda istedadlı uşaqların yetişdirilməsinə verdiyi xüsusi töhfəyə görə" nominasiyasında Milli İctimai Mükafata layiq görülüb.

Söhbət əsnasında Aytən xanim onu da bildirdi ki, məktəbin şagirdlərinin iştirak etdiyi müsabiqələr adətən onlayn yayımlanır. Əlbəttə, bu çıxışları onlayn yayımda izləyəndə hamımız böyük həyəcan keçiririk.

Müsahibimiz bu ayın axırında 3 nəfər şagirdin Estoniyanın Narva şəhərində keçiriləcək gənc pianoçuların Şopen adına beynəlxalq müsabiqəsində iştirak edəcəyini bildirdi. Bu müsabiqənin qalibləri "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.5-ci maddəsinə əsasən, ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar. Aytən xanim bildirdi ki, şagirdlər keçiriləcək müsabiqəyə ciddi şəkildə hazırlaşırlar:

"Dekabrın 21-24-ü tarixlərində Beynəlxalq Muğam Mərkəzində "Future stars" layıhəsi çərçivəsində "Musical devotion" adlı "Klassik Musiqi Festivalı"na təşkilatçılıq etdik. Məktəbin direktoru, xalq artisti Teymur Göyçayev belə festival və müsabiqələrin keçirilməsinə böyük önəm verir və son illər məktəbimiz bir çox müsabiqə və festivalların keçirilməsinin təşəbbüskarıdır. Festivalda Gürcüstandan gəlmiş gənc musiqiçilər (35 solist) və məktəbimizin şagirdləri gözəl konsert proqramları ilə dinləyiciləri sevindirdilər. Birgə konsertdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri iştirak edirdi. Şükürlər olsun, hər şey çox gözəl keçdi. Bu, gözəl musiqi bayramı idi".



### BU MƏKTƏBİN ŞAGİRDİ OLMAQ ÜÇÜN NƏLƏRİ BİLMƏK VACİBDİR?

Qonağı olduğumuz məktəbin I sinfinə daxil olmaq üçün şagirdlərin musiqi qabiliyyətləri yoxlanılır. Belə ki, uşaqların eşitmə qabiliyyəti, musiqi duyumu, musiqi yaddaşı və ritmi yüksək səviyyədə olmalıdır. Birinci sinifdən etibarən, müəllimlər uşaqlarda ifaçılıq vərdişləri və bacarıqlarının inkişafı üzərində mükəmməl iş aparır və artıq ikinci sinifdə aparılan işin nəticələri özünü göstərməyə başlayır.

Məktəbdən səhər saat 8-dən axşam 10-a kimi musiqi sədaları eşidilir. Uşaqların əksəriyyəti müdiriyyətdən icazə alaraq axşamlar məktəbdə ixtisasları ilə məşğul olurlar. Məktəbin ən yaxşı cəhətlərindən biri də odur ki, 1-ci sinifdən etibarən uşaqlar əməyə, zəhmətə öyrəşirlər. Hər kəs başa düşür ki, yüksək nəticələr əldə etmək üçün daim öz üzərilərində işləməli, bacarıqlarını inkişaf etdirməlidirlər.

Direktor müavini deyir ki, birinci sinfə qəbul əsasən fortepiano və violin ixtisasları üzrə olur. Növbəti siniflərdən digər alətlərə keçid mümkündür: "Məktəbimizdə 324 şagird təhsil alır. Hər bir şagirdə fərdi yanaşma var. Siniflərimizdə şagirdlərin sayı az olur. Axı onlar xüsusi istedada malik uşaqlardır. Uşaqlar arasında saglam rəqabət hökm sürür. Məktəbin şagirdləri üçün həlledici məqam 4-cü və 9-cu siniflərdə başlayır. Bu siniflər müsabiqə sinifləridir. Həmin siniflərin şagirdləri ixtisas musiqi fənlərini yüksək səviyyədə təqdim etdikləri halda, məktəbdə təhsillərini davam etdirirlər. Əks halda, məktəbdən xaric olunurlar".



Aytən xanımla söhbətdən sonra dərslərdə iştirak etdik. İlk olaraq I sinfin (rus bölməsi) "Həyat bilgisi" dərsinə baş çəkdik. Bu dərsdə məktəbdə özünü necə aparmaq lazım olduğundan bəhs edilirdi. Uşaqlar qruplara bölünmüşdü. Nəyin yanlış, nəyin doğru olduğunu bir-birilərinə izah etməyə çalışırdılar.

Sonra Azərbaycan bölməsinin I sinfinin dərs otağına daxil olduq. Bu dərsdə uşaqlar imla yazırdılar. VIII siniflərin ingilis dili dərsində isə Sədaqət Qurbanova və Züleyxa Əliyeva sinfi bölərək ingilis dilinin danışıq formalarından bəhs edirdilər.

Daha sonra Nəzəriyyə şöbəsinin müdiri Pikə Axundova və Ayaz Qəmbərlinin bəstəkarlıq üzrə dərslərində qonaq olduq.

Bülbül adına məktəbə gələsən, fortepiano dərsinə baş çəkməyəsən?.. Əməkdar müəllim Gülarə Namazova II sinif şagirdi Axundzadə Yusifə piano dərsi keçirdi. Bu müəllimənin adı bizə daha çox tanışdır. Belə ki, o, xalq artisti, pianoçu Murad Hüseynovun, əməkdar artistlər Emil Əfrasiyab, Şahin Növrəsli və digər tanınmış sənətçilərin müəllimidir. Onların dilindən məllimələrinin adını dəfələrlə eşitmişik.

Daha sonra müəllim Ülviyyə Manafovanın konsertmeyster sinfində əməkdar artist Gülnaz İsmayılovanın iştirakı ilə dərs prosesini izlədik.

Müşahidələrimiz nəticəsində belə qərara gəldik ki, məktəbin orkestr şöbəsinin şagirdləri son illər daha böyük uğurlara imza atıblar. Bundan əlavə, Aytən xanımın "bu məktəbə bir gələn, bir daha ayrılmaq istəmir" sözünün həqiqəti əks etdirməsinin şahidi olduq.

**P.S. Qeyd edək ki, il ərzində bu məktəbin şagirdləri Azərbaycanı müxtəlif beynəlxalq müsabiqələrdə təmsil edirlər. Qəzetimizin növbəti saylarında onlarla daha yaxından tanış olacaqsınız.**